# 3

# İmam Əlinin (ə) görüşündə xalqlar arasında sülh yaratmağın üç əsas prinsipi

Seyid Azər Əhmədoğlu[1]

## Xülasə

Dinin fərdi və ictimai həyat fəlsəfəsi toplumdakı sosial sülh və qardaşlığa bağlıdır. Bu prinsipə əsasən, Quranda və Əmirəl-möminin Əlinin (ə) kəlamlarında, eləcə həyat tərzində sülh fenomeninə böyük dəyər verilmişdir. İctimai həyat xüsusunda İslam sülh şəraitində birgəyaşayışa təkid edir. Hətta İmam Əlinin (ə) 25 illik səbrinə bu prizmadan baxmaq lazımdır.

Quranda və Əmirəl-möminin Əlinin (ə) kəlamında ölkələr, xalqlar və ayrı-ayrı cəmiyyətlər arasında sülhün bərqərar olmasından ötrü üç əsas prinsip gözə dəyir. Bu prinsiplər olduqca önəmli və həlledici status daşıyır; bəşər hüquqlarına riayət prinsipi, başqalarının şəxsiyyətinə hörmət prinsipi və bir də cəmiyyətin rifah və təhlükəsizliyinin qarantisi olan başqalarının yaşamaq hüququnu qəbul etmək prinsipi.

İslam bütün insanları sülhə, dostluğa dəvət edir və hətta kitab əhlini yalnız

1: Müəllif haqqında :Dr. Məhəmməd Yaqub Bəşəvi (Beynəlxalq "Əl-Mustafa (s)" Universitetinin müəllimi və tədqiqatçısı)

Bismillahir Rəhmanir Rəhim

Höccətül-İslam Dr. Məhəmməd Yaqub Bəşəvi pakistanlı alim, natiq və dəyərli tədqiqatçıdır.

O, Beynəlxalq "Əl-Mustafa (s)" Universitetindən doktorluq dərəcəsi almış və müxtəlif elmi, tədqiqat, təbliğat və mədəni fəaliyyət göstərir.

Beynəlxalq konfrans və festivallarda bir neçə elmi dərəcə qazanmış və bir çox uğurlar əldə etmişdir.

Doktor Bəşəvi bir neçə beynəlxalq elmi müsabiqəyə hakimlik etmişdir.

İndiyə qədər təfsir və dini maarif sahəsində 250-dən çox kitab və elmi məqalə yazmışdır. Onun əsərləri Urdu, Fars, Ərəb, İngilis, Benqal, Azərbaycan, Fransız, Birma, Tacik, Puştu, Hausa, Çin, Tay, Sindhi, Belti və Hind və sairə kimi müxtəlif dillərə tərcümə olunmuşdur.

Bashovi786@yahoo.com

İran nömrəsi: +98935650147Pakistan nömrəsi: +923462589001.

bir kəlmə ilə vəhdətə və ittifaqa səsləyir. İslamda savaş yalnız bir halda, düşmən tərəfindən İslamın əzəmətinə xələl gətirildikdə vacib olur. İslam bir nəfərin qətlini bütün bəşərin qətlinə bərabər tutur, bir nəfərin xilasını bütün bəşəriyyətin nicatı kimi qiymətləndirir. Elə bu minvalla sülhün dəyərini hər kəsə bəlli etmiş olur.

Açar sözlər: İmam Əli (ə), üç prinsip, sülh üçün zəmin yaratmaq, bəşər hüquqlarına riayət, başqalarının şəxsiyyətinə hörmət, başqalarının yaşamaq hüququnu qəbul etmək.

## Giriş

İslamın hamıya, ələlxüsus da müsəlmanlara təyin etdiyi sabit prinsiplərindən biri sülh yaratmaq və dostluq şəraitində birgəyaşayışı təmin etməkdir. İslam, sülh və əmin-amanlıq dinidir. Belə ki, heç bir xalqa, topluma qarşı zülm və zorakılığı rəsmi tanımır, əksinə İslamın bütün səyi toplumda sülh yaratmaqdır.

Konseptologiya – Söz və terminlərlə tanışlıq

Burada "sülh" sözünün leksik və terminoloji mənasını incələyəcək, Qurani-Kərimdə və İmam Əlinin (ə) kəlamında sülhün mahiyyətini araşdıracağam.

Sülhün leksik mənası:

"Sülh" ərəb sözü olub "müsaləhə"nin verbal ismi, "müsaləhə" də "müfaələ" babının məsdəridir. Bu sözün lüğətdəki mənası dostluq və sazişdir.[1]

Sülhün terminoloji mənası:

Sülh ümumi anlamda iki mənada işlənmişdir.[2] Birinci mənada savaş və cədəlin antonimidir ki, indiki yeri ümumi beynəlxalq hüquqdur. İkinci mənada isə xüsusi hüquqda bir müqavilə növüdür.

Sülh o yerdə məna daşıyır ki, ortada savaşmaq vəzifəsi olsun (Məsum imamın (ə) dövründəki ibtidai cihad, müdafiə xarakterli cihad, zalım və təcavüzkarlarla müharibə və s.), amma İslam və müsəlmanların xeyirlərinə əsasən, düşmənlə sülh müqaviləsi imzalasınlar; bu hökm müsəlmanların sayının az olduğu və düşmənə müqavimət göstərə bilmədiyi, yaxud güc toplayanadək qarşıdurmadan qaçdığı, ya da qarşı tərəfin İslam dinini qəbul edib müsəlman olmaq istədiyi hallarda keçərlidir. Qeyd edilən hallardan biri olmasa, sülhü davam etdirmək yolverilməzdir.[3]

Əsas sual: Məqalənin başlıca sualı İmam Əlinin (ə) görüşündə xalqlar arasında sülh yaratmağın üç əsas prinsipidir.

---

1 Həsən Əmid, "Fərhəngi-Əmid", səh. 1628.

2 Müraciət edin: Məhəmmədcəfər Cəfəri Ləngərudi, "Terminoloji-huquq", səh. 408.

3 Mühəqqiq Hilli, "Şəraiul-İslam", cihad kitabı – Mürtəzə Mütəhhərinin "Məcmueyi-asar"-ına istinadən, c. 16, səh. 628.

Sülh – Qurani-Kərim və İmam Əlinin (ə) kəlamında

Quranda və Əmirəl-möminin Əlinin (ə) kəlamında xalqlar arasında sülh yaratmağın üç əsas prinsipi təqdim edilmişdir. Həmin prinsipləri həyata keçirməklə İslami və qeyri-islami cəmiyyətlərdə sülhün davamlılığının şahidi olacağıq. Bu məqalədə sülhdən məqsəd, Quran və Əhli-beytin (ə) də təkid etdiyi dinc şəkildə birgəyaşayışdır. Qurani-Kərim cəmiyyətdə, hətta kafir toplumda ədalətli rəftara göstəriş verir:

﴿لا يَنْهَاكم اللَّهُ عَنِ الَّذِينَ لَمْ يُقَتِلُوكُمْ فى الدِّينِ وَ لَمْ يخْرِجُوكم مِّن دِيَرِكُمْ أَن تَبرُّوهُمْ وَ تُقْسِطوا إِلَيهِمْ إِنَّ اللَّهَ يحِب الْمُقْسِطِينَ﴾.

"Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!".[1]

Habelə Qurani-Kərim kitab əhli haqqında açıq-aşkar buyurur:

﴿وَ لا تجَدِلُوا أَهْلَ الْكتَبِ إِلا بِالَّتى هِى أَحْسنُ إِلا الَّذِينَ ظلَمُوا مِنهُمْ وَ قُولُوا ءَامَنَّا بِالَّذِى أُنزِلَ إِلَيْنَا وَ أُنزِلَ إِلَيْكمْ وَ إِلَهُنَا وَ إِلَهُكُمْ وَاحِدٌ وَ نحْنُ لَهُ مُسلِمُونَ﴾.

"Kitab əhlinin zülm edənləri (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! (Onlarla xoş rəftar edib ürəklərini ələ alın və özünüzdən incitməyin. Onların kobudluğuna nəzakətlə, qəzəblərinə soyuqqanlıqla cavab verin. Nalayiq işlər gördükdə nəsihət edib düz yola çağırın. Yox, əgər üstünüzə silah qaldırsalar, siz də silahlanıb onlarla vuruşun və onları təslim olmağa, cizyə verməyə məcbur edin!) Və (onlarla söhbət etdikdə) belə deyin: "Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız ona təslim olanlarıq!".[2]

Kitab əhli ilə yalnız ən yaxşı metodla cədəl edin, onlardan zülm və zorakılığa bulaşanlara isə deyin ki, biz Allahımız tərəfindən bizə nazil olanlara iman gətirmişik, sizin və bizim məbudumuz birdir və onun müqabilində təslimik.

﴿قُلْ يَأَهْلَ الْكِتَبِ تَعَالَوْا إِلى كلِمَةٍ سوَاءِ بَيْنَنَا وَ بَيْنَكمْ أَلا نَعْبُدَ إِلا اللَّهَ وَ لا نُشرِك بِهِ شيْئاً وَ لا يَتَّخِذَ بَعْضنَا بَعْضاً أَرْبَاباً مِّن دُونِ اللَّهِ فَإِن تَوَلَّوْا فَقُولُوا اشهَدُوا بِأَنَّا مُسلِمُونَ﴾

"(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim

---

1 "Mumtəhənə" surəsi, ayə 8.
2 "Ənkəbut" surəsi, ayə 46.

olanlarıq)!”.[1]

İslam sülh və dostluğu başlıca prinsip qərar vermişdir və hətta bütün kitab əhlini təkcə bir mövzunu mehvər seçməklə vəhdətə çağırımışdır. Müsəlman toplum üçün qardaşlıq prinsipi irəli sürür. Belə ki, İslam cəmiyyətləri arasında əlaqələr qardaşlıq əsasında formalaşır və əgər dini cəmiyyət əlaqələri arasında hər hansı problemlər yaranarsa, sülhlə, ədavəti aradan qaldırmaqla həllinə çalışmalıdırlar:

﴿إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصلِحُوا بَينَ أَخَوَيْكمْ وَ اتَّقُوا اللهَ لَعَلَّكمْ تُرْحَمُونَ﴾.

“Həqiqətən, mö´minlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!”.[2]

İnsanlar, cəmiyyətlər, xalqlar və ölkələr arasında sülh yaratmaq təqvalı olmağın və Allahdan qorxmağın nişanəsidir. Təqvalıların əlamətlərindən biri də budur. Onlar sülh yaratmaq sayəsində Allahın xüsusi mərhəməti və lütfünü qazanmış olurlar.

Əhli-beyt (ə) - ələvi sünnəsində sülhə təkid edilir, sülh müqabilində təslimçilik müşahidə olunur. Əmirəl-möminin Əli (ə) Malik Əştərə məktubunda yazır:

«و لا تدفعَنَّ صلحاً دَعاک إلیهِ عدوّک للهِ فیهِ رضاً»[3]

“Allahın razılığı olduğu və düşmənin də ona çağırdığı sülhü geri çevirmə”.

Əmirəl-möminin Əli (ə) İmam Həsən (ə) və İmam Hüseynə (ə) vəsiyyətində bütün övladlarına, bütün qohumlarına və vəsiyyətnaməyə əli çatan bütün insanlara təkid edir ki, insanların arasında sülh yaratmağı həyatlarının sərlövhəsi etsinlər:

«أوصیکما و جمیع وُلدی و أهلی و مَن بلغه کتابی بتقوی الله و نظم أمرکم و صلاح ذات بینکم»

“Mən sizi və bütün övladlarımı, ailəmi və bu vəsiyyətnamənin əlinə yetişdiyi hər bir kəsi Allahdan qorxmağa, təqvaya və insanların aralarını düzəltməyə tövsiyə edirəm”.[4]

Sülhün yaranmasında üç əsas prinsip

Cəmiyyətdə hərc-mərclik, xaos, çaxnaşmalar başqaların hüquqlarına riayət etməmək, başqlarına hörmət qoymamaq, başqlarına yaşamaq haqqı tanımamaq səbəbindən meydana gəlir. Əgər bir cəmiyyətdə başqalarının şəxsiyyəti və hüququ gözlənilərsə, digərlərinə də yaşamaq haqqı tanınarsa, heç vaxt ixtilaf

1 “Ali-İmran” surəsi, ayə 64.
2 “Hucurat” surəsi, ayə 10.
3 Məclisi, Məhəmmədbaqir, “Biharul-ənvar”, c. 33, səh. 600.
4 “Nəhcül-bəlağə”, 47-ci məktub.

olmaz, əksinə belə bir cəmiyyətdə sülh, asayiş və firavanlıq hökm sürər. Deməli, İslam nöqteyi-nəzərindən sülhün bərpasında ötrü üç prinsip təsəvvür olunur.

Bəşər hüquqlarına riayət;

Başqalarının şəxsiyyətinə hörmət;

Başqalarına yaşamaq haqqı tanımaq.

Hazırkı məqalədə bu üç prinsip mehvər qərar verilmiş, Əmirəl-mömin İmam Əlinin (ə) həyat tərzindən və sözlərindən nümunələr göstərilmişdir.

Bəşər hüquqlarına riayət

Həzrət Əli (ə) bərəkətli həyatı boyu bu prinsipi həyatının sərlövhəsi qərar vermişdir. O, beş illik hakimiyyəti dövründə hətta dövlət xadimlərinə əmr vermişdi ki, sözügedən prinsipə riayət etsinlər.

Əgər bir toplumda fərdlərin mülki hüquqlarına təcavüz edilməzsə, ölkələrin, hakimiyyətlərin hüquqlarına hörmət edilərsə, o toplumda savaş və qarşıdurma olmaz. Belə bir toplum ədalətmərkəzliliyə doğru hərəkət edəcək.

Bəşər hüquqlarına ehtiram (hansı ki, günümüzdə Qərb dünyası ondan dəm vurur) əslində İslamın sabit və dəyişməz prinsiplərindəndir. Hansı ki, Quran ona "kəramət" adı vermişdir:

﴿وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ وَرَزَقْنَاهُمْ مِنَ الطَّيِّبَاتِ وَفَضَّلْنَاهُمْ عَلَى كَثِيرٍ مِمَّنْ خَلَقْنَا تَفْضِيلاً﴾

"Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik".[1]

Bu ayədə Allah-taala başında kəramət tacı olan insanı digər varlıqlardan üstün göstərmişdir.

İnsanın xüsusi kəraməti və hörməti Allahla birbaşa münasibətinə, bir də ilahi ruhu daşıdığına görədir:

﴿فَإِذا سَوَّيْتُهُ وَ نَفَخْتُ فِيهِ مِنْ رُوحِي فَقَعُوا لَهُ ساجِدِينَ﴾

"Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (təzim məqsədilə) səcdə edin!".[2]

İnsan ilahi ruhun daşıyıcısıdır və buna görə də mələklərin səcdəgahı olmuşdur. Bütün mələklər insanın ali məqamına təslim və təzim əlaməti olaraq səcdə etdilər. İnsana hörmət qoymayan isə ilahi dərgahdan, Allaha yaxınlıq məqamından qovuldu:

«قالَ أَ رَأَيْتَكَ هذَا الَّذِي كَرَّمْتَ عَلَيَّ لَئِنْ أَخَّرْتَنِ إِلى يَوْمِ الْقِيامَةِ لَأَحْتَنِكَنَّ ذُرِّيَّتَهُ»

---

1 "İsra" surəsi, ayə 70.

2 "Hicr" surəsi, ayə 29.

"(İblis) həmçinin: "(İlahi!) Bir de görək (məni oddan, bu Adəmi torpaqdan yaratdığın halda) nə üçün onu məndən üstün tutdun? Əgər qiyamət gününə qədər mənə möhlət versən, az bir qismi istisna olmaqla, onun nəslini öz hökmüm altına alaram".[1]

Şeytan əməlindən peşman olmadı, əksinə Adəm övladlarından qisas almağı qarşısına məqsəd qoydu; əməlli-başlı və tükənməz savaşın təməli atıldı.

Bəşər hüquqlarını pozan ilk kəs İblis oldu. O, insanın ilahi xilafət məqamını anlamırdı: "وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلَائِكَةِ إِنِّي جَاعِلٌ فِي الْأَرْضِ خَلِيفَةً"; "(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam"[2] və xüsusi ilahi elmə sahib olduğunu "وَعَلَّمَ آدَمَ الْأَسْمَاءَ كُلَّهَا"; "(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün əşyaların (nəsnələr) adlarını öyrətdi"[3] bilmirdi. İblis Adəmə ehtiram qoymalı idi, amma insanın məqamına hörmətsizlik və insan haqlarını pozmaq səbəbilə: " وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ أَبَى وَاسْتَكْبَرَ وَكَانَ مِنَ الْكَافِرِينَ"; "Biz mələklərə: "Adəmə səcdə edin! - dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu"[4] insanlar və şeytan arasında sonsuz bir müharibə başladı. Bu müharibə fiziki və silahlı müharibə deyil, silahsız, psixoloji və mədəni müharibədir.

Əmirəl-möminin Əli (ə) bu həqiqətə toxunaraq Adəmə səcdəni insan məqamına ehtiram sayır:

وَ اسْتَأْدَى اللهُ سُبْحَانَهُ وَ تَعَالَى الْمَلائِكَةَ وَدِيعَتَهُ لَدَيْهِمْ وَ عَهْدَ وَصِيَّتِهِ إِلَيْهِمْ فِي الْإِذْعَانِ بِالسُّجُودِ لَهُ وَ الْخُنُوعِ لِتَكْرِمَتِهِ فَقَالَ سُبْحَانَهُ وَ تَعَالَى اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ وَ قَبِيلَهُ اعْتَرَتْهُمُ الْحَمِيَّةُ وَ غَلَبَتْ عَلَيْهِمُ الشِّقْوَةُ.

"Sübhan Allah mələklərdən istədi ki, onlara əmanət verdiyi şeyi geri qaytarsınlar. Onlara tövsiyə etdiyi şeyə əmr etdi və o da bu idi ki, Adəmə səcdə etməklə, onun üstünlüyü müqabilində təzimlə iman gətirsinlər. Sonra buyurdu: "Adəmə səcdə edin!". Nəticədə hamısı səcdə etdi, amma bədbəxtlik İblisə qələbə çaldı".[5]

İnsan öz gücü sayəsində doğru yolda ciddi-cəhd göstərərək başqalarından daha hörmətli ola bilər.

﴿يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَى وَجَعَلْنَاكُمْ شُعُوباً وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ

1 "İsra" surəsi, ayə 62.
2 "Bəqərə" surəsi, ayə 30.
3 "Bəqərə" surəsi, ayə 31.
4 "Bəqərə" surəsi, ayə 34.
5 Məclisi, Məhəmmədbaqir, "Biharul-ənvar", c. 11, səh. 97.

أَتْقَاكُمْ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ﴾

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır."[1] ayəsi buna sübutdur.

Başqalarının şəxsiyyətinə hörmət

Başqalarının şəxsiyyətinə hörmət fərddən tutmuş ölkə səviyyəsinədək fitnə və savaşın qarşısını alır, cəmiyyəti utopiyaya (ideal şəhər, ideal məkan) yönəldir.

İnsanlara ehtiram prinsipi ilahi təqvaya riayət etməkdədir. İnsan Allaha hər nə qədər yaxınlaşdıqca, Allah tərəfindən daha da əzizlənir. Bir cəmiyyətdə insana hörmət olduqca sülh və asayiş də olacaq. İmam Əli (ə) insan şəxsiyyətinin gözlənilməsini, ehtiramını və əziz tutulmasını onun öz əlində bilir. İnsanları da bu həqiqətə dəvət edərək buyurur: " لا تکن عبد غیرک وقد جعلک الله حراً"; "Heç kimin qulu olma, çünki Allah səni azad yaradıb".[2]

Quldarlıq insanın kəramətinə ziddir, hətta quldarlıq düşüncəsi belə cəmiyyətə hakim olmamalıdır. İnsana, insan olduğuna görə ehtiram göstərmək önəmlidir və bu bütün hallarda gözlənilməlidir:

خَرَجَ أَمِيرُ الْمُؤْمِنِينَ عليه السلام عَلَى أَصْحَابِهِ وَ هُوَ رَاكِبٌ فَمَشَوْا خَلْفَهُ فَالْتَفَتَ إِلَيْهِمْ فَقَالَ لَكُمْ حَاجَةٌ فَقَالُوا لَا يَا أَمِيرَ الْمُؤْمِنِينَ وَ لَكِنَّا نُحِبُّ أَنْ نَمْشِيَ مَعَكَ فَقَالَ لَهُمُ انْصَرِفُوا فَإِنَّ مَشْيَ الْمَاشِي مَعَ الرَّاكِبِ مَفْسَدَةٌ لِلرَّاكِبِ وَ مَذَلَّةٌ لِلْمَاشِي[3]

Piyadanın süvarinin dalında düşüb ona yol yoldaşı olması süvarinin azğınlığına, fəsadına və eləcə də möminin zillətinə səbəb olur. Ona görə ki, bütün insanlar bərabərdir. İmam Əlinin (ə) Misir valisi Malik Əştərə məktubunda bu həqiqətə yer verilmişdir:

﴿وَ لَا تَكُونَنَّ عَلَيْهِمْ سَبُعاً ضَارِياً تَغْتَنِمُ أَكْلَهُمْ فَإِنَّهُمْ صِنْفَانِ إِمَّا أَخٌ لَكَ فِي الدِّينِ وَ إِمَّا نَظِيرٌ لَكَ فِي الْخَلْقِ﴾[4].

İmam Əlinin (ə) hökumətində bütün insanların qarşılıqlı və bərabər hörməti var idi. Əli dövlətinin hüdudlarında heç kəsə zülm olmamalıdır. Odur ki, Müaviyənin qarətçi qoşununun camaata hücumunu, qadınların bər-bəzəyini

1 "Hucurat" surəsi, ayə 13.
2 Feyzul-İslam, "Nəhcül-bəlağə", 27 ci xütbə.
3 Məclisi, Məhəmmədbaqir, "Biharul-ənvar", c. 55, səh. 41.
4 Məclisi, Məhəmmədbaqir, "Biharul-ənvar", c. 33, səh. 600.

xarlıqla mənimsədiklərini İmama xəbər verdikdə çox narahat oldu və buyurdu:

﴿لَقَدْ بَلَغَنِي أَنَّهُ كَانَ الرَّجُلُ مِنْ أَهْلِ الشَّامِ يَدْخُلُ عَلَى الْمَرْأَةِ الْمُسْلِمَةِ وَ الْمُعَاهَدَةِ فَيَنْتَزِعُ أَحْجَالَهُمَا وَ رُعُثَهُمَا، ...فَلَوْ أَنَّ امْرَأً مُسْلِماً مَاتَ مِنْ دُونِ هَذَا أَسَفاً، مَا كَانَ عِنْدِي فِيهِ مَلُوماً، بَلْ كَانَ عِنْدِي بِهِ جَدِيراً﴾.

"Mənə xəbər çatdı ki, onlardan biri müsəlman qadının və bir də İslama sığınmaqla can və malı təhlükəsizlikdə olan kafir qadının evinə soxularaq xalxalı, qolbağ və sırğalarını əllərindən almışlar... Bir halda ki, müdafiə üçün qadınların ağlamaq və yalvarmaqdan başqa çarələri yox imiş... Əgər bu hadisə və narahatçılıq nəticəsində bir müsəlman ölsə, mənim tərəfindən məzəmmət olunmayacaq. Mənə görə layiqli iş görmüşdür!".[1]

Bu əksül-əməl, bu çıxış insanların din və əqidəsini nəzərə almadan onların insanlıq məqamına hörmətin göstəricisidir. Bir də bu həqiqəti ortaya qoyur ki, insanın hörmət və dəyəri əvəzedilməzdir:

وَ أَكْرِمْ نَفْسَكَ عَنْ كُلِّ دَنِيَّةٍ وَ إِنْ سَاقَتْكَ إِلَى رَغْبَةٍ فَإِنَّكَ لَنْ تَعْتَاضَ بِمَا تَبْذُلُ مِنْ نَفْسِكَ عِوَضاً وَ لَا تَكُنْ عَبْدَ غَيْرِكَ وَ قَدْ جَعَلَكَ اللهُ حُرّاً.

"Özünü o qədər üstün tut ki, hər xarlığa tən verməyəsən, məqsədinə (çoxlu dünya malına) çatdırsa belə. Çünki əldən verdiyin abrının və insan şəxsiyyətinin müqabilində heç nə əldə etməyəcəksən. Hər kəsin qulu olma! Çünki Allah səni azad yaratmışdır".[2]

Əmirəl-möminin Mövla Əlinin (ə) ədalətli hökumətində hər kəs asayiş hiss edirdi, hərçənd İslam düşmənləri ona üç döyüş (Cəməl, Siffin, Nəhrəvan) təhmil etdilər. Həzrət Əli (ə) cəmiyyətin bütün təbəqələri ilə ədalət çərçivəsində rəftar edirdi. Belə ki, o, əldən düşmüş və cəmiyyətin öz halına buraxdığı yaşlı nəsrani (məsihi) ilə qarşılaşdıqda gördüyü səhnəyə dözməyib belə bir fərman verdi:

أَبِي حَمْزَةَ عَنْ رَجُلٍ بَلَغَ بِهِ أَمِيرَ الْمُؤْمِنِينَ (عليه السلام) قَالَ: مَرَّ شَيْخٌ مَكْفُوفٌ كَبِيرٌ يَسْأَلُ فَقَالَ أَمِيرُ الْمُؤْمِنِينَ عليه السلام مَا هَذَا فَقَالُوا يَا أَمِيرَ الْمُؤْمِنِينَ عليه السلام نَصْرَانِيٌّ قَالَ فَقَالَ أَمِيرُ الْمُؤْمِنِينَ (عليه السلام) اسْتَعْمَلْتُمُوهُ حَتَّى إِذَا كَبِرَ وَ عَجَزَ مَنَعْتُمُوهُ أَنْفِقُوا عَلَيْهِ مِنْ بَيْتِ الْمَالِ.

"İmam Əli (ə) əldən düşmüş bir qocanın yanından keçirdi. O, yoxsulluqdan dilənirdi. İmam (ə) buyurdu: "ما هذا؟"; "Bu nədir?" Demədi ki, bu kimdir, yəni xoşagəlməz hadisə nədir? Dedilər: Nəsranidir (yəni müsəlman deyil ki, sizi

1 Məclisi, Məhəmmədbaqir, "Biharul-ənvar", c. 34, səh. 143.
2 Məclisi, Məhəmmədbaqir, "Biharul-ənvar", c. 74, səh. 226.

narahat eləsin).

Buyurdu: Bu nəsrani kişini cavanlığında işlətmisiniz, indi də gücsüz və yaşlı olduğu üçün öz halına buraxmısınız? Onun yaşam xərcləri beytül-maldan təmin edilməlidir".[1]

Başqalarının şəxsiyyətinə ehtiram, istər fərd olsun, istərsə də cəmiyyət, şəhər olsun, ya ölkə, ideologiya olsun, ya xalq sülh və dostluğu dirçəldəndir. Əgər bu ehtirama riayət edilməzsə, o yerdə savaş, qarşıdurma, fitnə qaçılmazdır və necə bitəcəyi, xalqların, ölkələrin başına nə bəlalar gələcəyi bəlli deyil.

Başqalarına yaşam haqqı tanımaq

Başqalarına həyat haqqı vermək dinc ictimai həyatın qarantisidir və cəmiyyəti tərəqqiyə yönləndirəcək. Hər insanın insanlıq haqqı vardır, heç kim bu haqqı ondan ala bilməz. Cəmiyyət bu haqqı möhtərəm saydıqca və əhali ona riayət etdikcə hər hansı problem yaşanmayacaqdır. Daha sadə desək, bəhs etdiyimiz üç əsas prinsip nəzərlərdə möhtərəm olduqca, savaş baş verməyəcək. Çünki savaşlarda hörmətsizlik var; üstünlük prinsipi, başqalarının həyatına hörmət və onlara yaşam tanımaq haqqı ayaqlar altında leh olur.

Müharibədə əsas prinsip düşməni məhv etməkdir və bir növ həyat haqqını mənimsəməkdir, rəqibi məğlub etmək, onun həyatına son qoymaqdır. Odur ki, belə məqamlarda yaşam haqqı görməzdən gəlinir. İnsanın üstünlüyü, bəşər hüquqları və onlara ehtiram heçə sayılır. Həmin məsələ iki fərd, iki ölkə, iki millət, iki ideologiya, iki xalq arasında da keçərlidir.

Əmirəl-möminin Əli (ə) həmişə sülh tərəfdarı olmuşdur. Onun nur saçan kəlamlarında və həyat tərzində bu haqq daimə möhtərəm sayılmışdır. Hətta Misir valisi Malik Əştərə yazdığı məşhur məktubunda belə bir işə dəfələrlə təkid etmişdir:

إِيَّاكَ وَالدِّمَاءَ وَسَفْكَهَابِغَيْرِحِلِّهَا، فَإِنَّهُ لَيْسَ شَيْءٌ أَدْنَي لِنِقْمَهٍ وَلَاأَعْظَمُ لِتَبِعَهٍ، وَلاأَحْرَي بِزَوَالِ نِعْمَهٍ، وَانْقِطَاعِ مُدَّهٍ، مِنْ سَفْكِ الدِّمَاءِبِغَيْرِحَقِّهَا.

"İnsanların qanını tökməkdən çəkin ki, nahaqq qan qədər heç nə Allahın əzabını yaxınlaşdırmır, cəzanı böyütmür, nemətin məhvini sürətləndirmir və hökumətin məhvini tezləşdirmir".[2]

Bu məktubda Malik Əştərə təkidlə bildirir ki, nahaqq qan tökməkdən çəkinsin , çünki bu iş Allahın əzabını sürətləndirir. Elə bir əzab ki, zalımın yaxasına yapışır, boğazından su keçməsinə izn vermir və dövlətin sütunlarını laxladır.

Ardınca İmam Əli (ə) bu məqama belə toxunur:

﴿وَاللهُ مُبْتَدِءُبِالْحُكْمِ بَيْنَ الْعِبَادِفِيْمَا تَسَافَكُوامِنَ الدِّمَاءِ يَوْمَ الْقِيَامَهِ﴾.

---

1 Şeyx Tusi, "Təhzibul-əhkam", c. 6, səh. 292, hədis: 811.
2 Məclisi, Məhəmmədbaqir, "Biharul-ənvar", c. 33, səh. 611.

"Allah qiyamət günü bəndələr arasında ilk öncə nahaqq qanı axıdılanlar haqqında hökmdən başlayacaq".[1]

Hakim Allahdan qorxmalıdır. Əgər hakim Allahdan qorxarsa, cəmiyyət gülüstana çevrilər və həmin cəmiyyətdə heç bir təhlükə gözə dəyməz. Fitnələrin çoxu dövlətlər tərəfindən, müxaliflərin qətli ilə başlayır və bütün ölkəyə yayılır.

İmam Əli (ə) qızıla bərabər və misilsiz kəlamında Malikə buyurur:

فَلاتُقَوِّيَنَّ سُلْطانَكَ بِسَفْكِ دَمٍ حَرامٍ، فَإِنَّ ذَالِكَ مِمّايُضْعِفُهُ وَيُوْهِنُهُ بَلْ يُزِيْلُهُ وَيَنْقُلُهُ، وَلاعُذْرَلَكَ عِنْدَاللهِ وَلاعِنْدِي فِي قَتْلِ الْعَمْدِ.

"Elə isə, haram qan tökməklə hökumətini bərkitmə! Çünki nahaqq qan hökumətin sütunlarını süstləşdirər, onun təməlini qoparıb başqalarına ötürər. Nahaqq qana görə nə mənim, nə də Allahın yanında üzrün olmayacaq, çünki onun cəzası qisasdır və ondan qaçmaq qeyri-mümkündür".

Günümüzdə İmam Əlinin (ə) bu qiymətli sözünü nazirlər kabinetində, prezident aparatında, nazirlərin otağında, icra hakimiyyətlərində tabloya yazıb, hər yerdə, dövlət xadimlərinin gözləri önündə asmaq lazımdır ki, dövlət nahaqq qan axıtmaqla qalıcı olmur, əksinə öz sonunu gətirir. Hökumət sütunları laxlayır və hakimin gücünün bitməsinə səbəb olur.

Əmirəl-möminin İmam Əlinin (ə) bu kiçik cümləsi tam fəsahət və bəlağətlə başqalarının da yaşam haqqı olduğunu təsvir etmişdir. Əgər bu haqq rəsmi surətdə tanınarsa, müharibələr sona çatar, çünki müharibələr başqalarından daha çox güc və sərvət qazanmağa xidmət edir. Bu yolda heç bir mülahizəyə riayət edilmir, daha çox güc, hökumətin hüdudlarını artırmaq, cəmiyyəti təhlükəyə atmaq, fitnə və fəsadlar törətmək məqsədləri güdülür.

Başqalarına yaşam haqqı tanımaq Quranın misilsiz göstərişlərindəndir, hansı ki, bütün bəşəriyyəti bu həqiqətə sövq edir, bir insanın xilasını bütün insanların xilasına, bir insanın qətlini, bütün insanların qətlinə bərabər bilir:

﴿مِنْ أَجْلِ ذلِكَ كَتَبْنا عَلى بَنِي إِسْرائِيلَ أَنَّهُ مَنْ قَتَلَ نَفْساً بِغَيْرِ نَفْسٍ أَوْ فَسادٍ فِي الْأَرْضِ فَكَأَنَّما قَتَلَ النَّاسَ جَمِيعاً وَ مَنْ أَحْياها فَكَأَنَّما أَحْيَا النَّاسَ جَمِيعا﴾.

"Buna görə də İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur".[2]

Belə dini istinadlardan bəlli olur ki, başqalarına yaşamaq haqqı tanımaq Quranın prinsiplərindən və dini göstərişlərindəndir. Cəmiyyət ona riayət etməlidir ki, sülh və mehribanlığa şərait yaransın, digər tərəfdən isə milli, siyasi,

1 Məclisi, Məhəmmədbaqir, "Biharul-ənvar", c. 33, səh. 611.
2 "Maidə" surəsi, ayə 32.

mədəni, dini və məzhəbi qarşıdurmalara son qoyulsun.

Nəticə

İctimai həyatda əsas məsələ sülh şəraitində dinc birgəyaşayışdır. Quran və ələvi sünnəsi də dəfələrlə buna təkid etmişdir. Quranda və Əmirəl-möminin İmam Əlinin (ə) kəlamlarında xalqlar, ölkələr, tayfalar və müxtəlif toplumlar arasında sülh yaratmaqdan ötrü üç əsas prinsip irəli sürülmüşdür ki, olduqca mühüm və həlledicidir. İslam dini bütün insanları sülh və dostluğa dəvət edir. Hətta kitab əhlini bir kəlmə (tövhid) ətrafında vəhdət və birliyə çağırır. İslamda savaş yalnız bir halda, cəmiyyətdə hərc-mərclik yarandıqda, düşmən tərəfindən İslamın əzəmətinə xələl gətirildikdə vacib olur. Yoxsa ki, İslam bir nəfərin qətlini bütün bəşərin qətlinə bərabər tutur, bir nəfərin xilasını bütün bəşəriyyətin nicatı kimi qiymətləndirir.

**İstifadə edilmiş ədəbiyyat:**


Qurani-Kərim

Nəhcül-bəlağə

CəfəriLəngərudi, Məhəmmədcəfər, “Terminoloji-hüquq”, Gənci-daneş kitabxanası, 1367 h.şəmsi. (1978).

Şeyx Tusi, “Təhzibul-əhkam”, Darul-əzva, Beyrut, 1430 h.q.

Əmid, Həsən, “Fərhəngi-Əmid”, İntişarati Əmir Kəbir, Tehran, 1363 h.şəmsi (1974).

Feyzul-İslam, Əli Nəqi, “Nəhcül-bəlağə”, Tehran, 1364 h.şəmsi (1975).

Məclisi, Məhəmmədbaqir, “Biharul-ənvar”, Beyrut, əl-Vəfa müəssisəsi

Mütəhhəri, Murtəza, “Məcməul-asar”, İntişarati-Sədra, Qum.

Tərcümə edən: Xəyal Tofiqoğlu

https://www.leader.ir/fa

https://wiki.ahlolbait.com

http://tadabbor.org/

http://iemt.blogfa.com/post/699

https://karevansadeghiye.ir/

https://zucela.governlearnmultiply.top

http://ensani.ir/fa/article

https://fa.wikipedia.org

http://www.imam-khomeini.ir

http://ensani.ir/fa/article